**ADF MK-NIN BƏYANATI**

**25.04.2025**

Hörmətli Firqə mənsubları və Güney Azərbaycanın milli azadlıq hərəkatının iştirakçıları

Azərbaycan Demokrat Firqəsinin keçdiyi tarixi yol xalqımızın iftixar və qürur mənbəyidir. Yaxın günlərdə ADF-nin yaradılmasının 80 illiyini xalqın böyük dəstəyi ilə və iftixarla qeyd edəcəyik.

Bu günlərdə çap olunmuş "Azərbaycan Demokrat Firqəsinin İstiqlaliyyət bildirişi" adlı kitabın tərtibatçıları tanıdıgımız və milli kimliyinə ehtiram etdiyimiz şəxslər olsa da bu işin ziyanlı bir addım və qüsurlu bir əməl oldugunu elan etmək məcburiyyətindəyik.

ADF-nin fəaliyyət göstərdiyi 80 il ərzində çoxlu sayda ABŞ, Almaniya, İngiltərə kimi dövlətlərin, eləcə də Sovet rejimi xüsusi xidmət orqanlarının gizli sənədləri üzə çıxmış, kanspiralogiya nəzəriyyələr, massonluq, xəyanətlər və ağıla gələ bilməyən iddialarla rastlaşmışıq. Hətta İsrail xüsusi xidmət orqanlarında ADF sədri, Azərbaycan Milli Hökumətinin (1945-1946) Baş naziri Seyid Cəfər Pişəvəri ilə əlaqədar sənədlər sosial şəbəkələrdə yayılsa, biz təəccüb etmərik. Amma bu kimi addımların kimə və nəyə xidmət edə biləcəyini açıqlamaq məcburiyyətindəyik.

ADF rəsmi olaraq elan edir ki, belə arxiv sənədlərinin, bu günə qədər elan olunmuş və bundan da sonra elan ediləcək arxiv sənədləri, gizli məktublar və məxfi yazışmaların heç birinin nə hüquqi, nə də tarixi əsası yoxdur.

Hesab edirik ki, ADF-nin adından bəyan olunmuş bu "bildiriş" müvafiq arxivdən rəsmi şəkildə elan olunmadıqca, sənədin linqvistik, üslub və frazeoloji təhlili edilmədən onun mötəbərliyi qəbul edilə bilməz. Böyük rəhbər S.C.Pişəvərinin və onun silahdaşlarının yazmış oldugu yüzlərlə səhifə mötəbər sənədlər açıq dövriyyəyə daxil edilib. Hər hansı "bildiriş" yazılarkən, ictimaiyyətə təqdim edilərkən onun kimin qələmindən çıxdıgını və nə üçün Türkiyə türkcəsində tərtib olundugunu biz sorğulamırıq, belə ki, bununla gündəm yaratmaq və əsası olmayan müzakirələr açmaq fikrimiz yoxdur.

Güneydə xalqımızın hələ ki, arzu və məramına çatmadıgı bu dövrdə belə araşdırmalar və saxta gündəm yaratmaq səyləri ziyanlıdır və milli maraqlarımıza xidmət etmir.

ADF Güney Azərbaycanın ən böyük ideolojı sınaqlardan çıxmış, şəhid və qurbanları ilə xalqın tarixi yaddaşında, qəlbində yeri olan siyasi partiyadır. Bu partiyanı gözdən salmaq, qaralamaq düşmənlərin çoxdankı arsusudur.

ADF-nin "Azadlıq, Ədalət və Milli hökumət" şuarı həyata keçənə qədər "arxiv və gizli sənədlərlə" baş qarışdırmaq, kimin kim oldugu haqqında, kimin nə düşündüyü haqqında yazılar, müzakirələr təxribat məqsədi daşıyır

**ADF-nin Siyasi Heyyəti**